AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

9 iyun 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 22 (3585)



# ÖLKƏMİZ BEYNƏLXALQ ALƏMƏ ÖZÜNÜ ETİBARLI TƏRƏFDAŞ KİMİ SÜBUT EDİB




Dövlət başçımızın yürütdüyü müstəqil və uğurlu siyasət nəticəsində yaranan siyasi və iqtisadi sabitlik, neft, qaz və elektrik enerjisi ilə bağlı infrastrukturun yaradılmasında da əhəmiyyətli rol oynayıb.

Enerji təhlükəsizliyinə böyük sərmayə yatıraraq, idxalçıdan ixracatçıya çevrilən ölkəmiz 1994-2020-ci illər ərzində "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, üç seqmentli-Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP qaz boru kəmərlərindən ibarət "Cənub qaz dəhlizi" layihələrini reallığa çevirib.

"Cənub qaz dəhlizi"nin reallaşması isə Azərbaycana nəhəng "Şahdəniz" qaz-kondensat yatağında hasilatı artırmağa imkan yaradıb. Ölkəmizin qaz potensialı yalnız "Şahdəniz"lə məhdudlaşmır. Gələn il digər yataqlarda da hasilat başlayacaq və təbii ki, bu da enerji təhlükəsizliyinə mühüm töhfə verəcək.

İyunun 1-də "Bakı Enerji Həftəsi" çərçivəsində rəsmi açılış mərasimi keçirilən 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində çıxış edən ölkə Prezidenti İlham Əliyev Azərbaycanın enerji siyasəti, hazırkı durum və yeni zamanın tələbi olan alternativ enerjidən istifadə ilə bağlı görülən işləri, eləcə də hədəfləri açıqlayıb.

Ölkə başçımız bildirib ki, gündəlikdə duran növbəti plan yenilənən enerjidir və artıq bu sahədə işlər görülür. Enerji amili, enerji diplomatiyası və bütün layihələr bizim iqtisadi potensialımızı gücləndirir və imkan yaradır ki, cəsarətli islahatlarla yanaşı, neft-qaz sektorundan əldə etdiyimiz gəlirlər iqtisadiyyatımızın qeyri-neft sektoruna yönəldilsin.

Bütün bunların nəticəsidir ki, bu il ümumi daxili məhsul 7.2 faiz artıb. Qeyri-neft sektorunda artım 11.5 faiz, qeyri-neft sənayesində artım 15 faizdən artıq olub.

Ümumiyyətlə, Azərbaycan zəngin neft-qaz ölkəsi olsa da, gələcəyin enerji təminatını alternativ mənbələrdə görür. Azərbaycanda hələ 2011-ci ildən "Qobustan" Hibrid Elektrik Stansiyası fəaliyyət göstərir.

Ölkəmiz külək və günəş enerjisinin istehsalı üçün geniş mənbələrə malikdir ki, bu da alternativ enerjidən daha geniş istifadə etmək imkanı yaradır. Artıq gündəliyin ön sıralarında olan "Yaşıl gündəlik" də təsdiq edilib və Azərbaycan işğaldan azad edilmiş əraziləri "yaşıl enerji" zonası elan edib.

Prezident buna misal olaraq, bu il dünyanın aparıcı enerji şirkətləri olan "ACWA Power" və "Masdar" şirkətləri ilə iki stansiyanın təməlqoyma mərasiminə diqqət çəkərək vurğulayıb ki, hazırda biri günəş, digəri isə külək olmaqla, iki elektrik stansiyası inşa olunur. Onların birgə istehsal gücü 470 meqavatdır. Gələn il bu iki stansiya istifadəyə veriləcək və bu, hələ başlanğıcdır. Azərbaycan artıq yenilənən enerji sahəsində bir çox aparıcı enerji şirkətləri ilə fəal danışıqlar mərhələsindədir.

Bütün bunlar onu göstərir ki, ölkəmiz milli maraqlara tam cavab verən, həmçinin beynəlxalq sferada mövqeyini və əlaqələrini əhəmiyyətli dərəcədə gücləndirən siyasət həyata keçirir.

## F1™

## DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ NAZİRYANI ƏMƏLİYYAT MÜŞAVİRƏSİ KEÇİRİLDİ

İyunun 7-də Daxili İşlər Nazirliyində Bakı şəhərində baş tutacaq "2022 Formula-1 Azərbaycan Qran Prisi"nin keçiriləcəyi müddətdə ictimai asayişin mühafizəsinin təşkili və qarşıda duran vəzifələrə həsr olunmuş videokonfrans formatında naziryanı əməliyyat müşavirəsi keçirilib.

Müşavirəni giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov Azərbaycanın son illər bir çox nüfuzlu idman yarışlarına ev sahibliyi etdiyini, daxili işlər orqanlarının belə tədbirlərdə ictimai təhlükəsizliyin və ictimai asayişin təmini sahəsində böyük təcrübə qazandığını diqqətə çatdırıb.

"2022 Formula-1 Azərbaycan Qran Prisi" yarışı ərəfəsində və yarışın keçiriləcəyi 10-12 iyun tarixlərində də gücləndirilmiş iş rejimində xidmət aparacaq polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirmələrinin vacibliyini diqqətə çatdıran nazir, iştirakçıların, azarkeşlərin, ölkəyə gələn qonaqların və xarici media nümayəndələrinin təhlükəsizliyinin təmin edilməsi, yarışın keçirildiyi və ətraf ərazilərdə ictimai qaydanın qorunması, buraxılış məntəqələrində təhlükəsizliyin gücləndirilməsi, eləcə də insanların rahat, maneəsiz hərəkət etmələri üçün əlverişli şəraitin təmin edilməsi barədə tələb və tövsiyələrini verib.



## "Şərq Bazarı" kompleksi keçmişlə gələcəyin harmoniyasıdır

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksdə yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verilib ki, "Şərq Bazarı" kompleksinin bərpa və yenidənqurması işləri icra olunarkən bir sıra nüanslara xüsusi diqqət yetirilib.

Belə ki, "Şərq Bazarı"nın girişində kiril əlifbası ilə yazılmış orijinal yazı eyni kalliqrafiya inkişaf etdirilərək latın əlifbasına dəyişdirilib, daxildəki işarə və başlıqlar bazarın üslubuna uyğun yenidən dizayn olunub.

O da bildirilib ki, bazarda 78 icarədar fəaliyyət göstərəcək. Bu isə 300 yeni iş yerinin yaranması deməkdir.

Qeyd edək ki, "Şərq Bazarı"nın ilkin layihələndirilməsi 1980-ci illərin məşhur memarları Uruzmaq Revazov, Pavel Yarinovski və Anatoliy Bessonov tərəfindən icra olunub. Kompleks 3-ü böyük, 13-ü kiçik olmaqla 16 gümbəzdən ibarətdir.

Layihələndirilməsinə 1978-ci ildən başlanılmış kompleksin tikintisinə 1980-ci ildə start verilib və 1982-ci ildə bazarın rəsmi açılışı olub. İlkin olaraq kompleks bazar kimi fəaliyyət göstərib.

Nadir memarlıq üslubuna görə, "Şərq Bazarı" 2001-ci ildə Nazirlər Kabinetinin müvafiq qərarı ilə ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilib. 2017-ci ildə aparılmış əsaslı müayinədən sonra dərhal detallı layihələndirmə prosesinə başlanılıb və 2020-ci ildə bərpa işlərinə start verilib.




Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il iyun ayının 21-də Şirvan Şəhər Polis Şöbəsinin inzibati binasında Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab və Saatlı şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 20.06.2022-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in **mia.gov.az** internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# Qisası qiyamətə qoymayanlar

## Onlar həm şahid, həm də şəhid oldular



Döyüş meydanında sinəsini gülləyə sipər edən hərbi qulluqçularımızdan biri də baş çavuş Allahyarov Vüsal Şakir oğludur. O, 1988-ci il aprelin 22-də Sumqayıt şəhərində doğulub.

Vüsal Sumqayıt şəhərindəki 9 saylı tam orta məktəbdə oxuyub. Fəallığı, təşkilatçılıq qabiliyyəti ilə seçilib və idmanın cüdo növünə maraq göstərib.

Birinci Qarabağ müharibəsi gənc nəslin nümayəndəsi kimi Vüsalın da dünyagörüşünə, mənəvi aləminə təsirsiz ötüşməyib.

2008-ci ilin iyul ayından 2010-cu ilin yanvar ayınadək Vüsal Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. O, 2011-ci ilin 3 may tarixindən etibarən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 2018-ci ilin yanvar ayının 6-dək Quba rayonundakı "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı, snayper, yarımqrup komandiri, snayper qrupunda yarımqrup komandiri vəzifələrində xidmət edib.

"Zoğalı beret" peşə hazırlığı sınaqlarında uğur qazandığına görə daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının 16 sentyabr 2016-cı il tarixli müvafiq əmrinə əsasən, Vüsala zoğalı beret daşıma hüququ verilib. Bu, xüsusi təyinatlını xidmətdə yeni nailiyyətlər qazanmağa ruhlandırıb.

2017-ci ilin avqust ayında Vüsal Türkiyə Respublikasına göndərilib. 2018-ci ilin yanvar ayınadək Jandarm Baş Komandanlığının Foçadakı Komando Məktəbində komando təməl kursu çərçivəsində ayrı-ayrı istiqamətlər üzrə təlim mərhələlərindən keçib.

2018-ci ilin yanvar ayının 6-dan Qoşunların Lənkəran rayonunda yerləşən "N" saylı hərbi hissəsində hərbi xidmətini davam etdirərək, xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri vəzifəsinə təyin olunub. Hərbi xidməti dövründə "baş çavuş" hərbi rütbəsinədək yüksəlib, daxili işlər nazirinin 27 iyun 2020-ci il tarixli müvafiq əmrinə əsasən, III dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilib.

2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi başlayanda Daxili Qoşunların şəxsi heyəti ön cəbhənin müxtəlif istiqamətlərində döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunub. Daxili Qoşunların Lənkəran rayonundakı "N" saylı hərbi hissənin xüsusi təyinatlıları müharibənin ilk günündən qoşunların Bərdə rayonunda yerləşən "N" saylı hərbi hissəsinə göndərilərək bir müddət burada yerləşdiriliblər. Oktyabr ayının ortalarında isə Füzuli rayonunun ərazisinə gəliblər. Vüsalın silahdaşları ilə birgə döyüş yolu bu rayondan başlayaraq Şuşayadək davam edib.



Lənkərandakı "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri, Vətən müharibəsi iştirakçısı mayor Cavid Tağıyev bildirdi ki, Vüsal nizam-intizamlı, vətənpərvər əqidəli, öz bilik və bacarıqlarını artırmaq üçün çalışan hərbi qulluqçu idi. Vətən müharibəsində igid və peşəkar xüsusi təyinatlı olaraq düşmənə qarşı mətinliklə vuruşub.

Vətən müharibəsi qazisi, II qrup əlil İlkin Abuyev: "Şuşa uğrunda ağır döyüşlər gedirdi. Şəhərə yaxınlaşmaq üçün Xocavənd və Xocalı rayonlarının çətin keçilən dağlıq əraziləri ilə bir neçə gün hərəkət etdik. Şuşa ətrafında müxtəlif çaplı atıcı silahlardan atəş zərbəsi endirməklə işğalçıları məhv edib bir neçə hərbi avtomobil texnikasını sıradan çıxardıq. Noyabrın 5-dən 6-na keçən gecə Şuşanın qala divarlarını özlərinə mövqe seçən döyüşçülərimiz düşmənin artilleriya atəşinə məruz qaldı. Həmin gün Vüsalla bərabər bir neçə nəfər silahdaşımız haqqa qovuşdu"...

12 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə Vüsalın 9 noyabr 2020-ci ildə Şuşada hərbi əməliyyat nəticəsində baş beynin diffuz travması, qəlpələrlə zədələnmələr səbəbindən şəhid olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid hərbi qulluqçumuz 2020-ci il noyabrın 12-də Sumqayıtdakı Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 9, 15, 25 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş V.Allahyarov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qeyd edək ki, Türkiyə DİN-in Jandarm Baş Komandanlığının Foça Komando Məktəbində Vətən müharibəsində şəhid olan azərbaycanlı məzunların xatirəsinə abidə ucaldılıb.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# Asayişin təmini postdan başlayır...



**Bəlkə bir az obrazlı səslənəcək, ancaq polis postları ölkəmizdəki sabitliyin dayaqlarına bənzəyirlər. Bu fikrimizi Daxili İşlər Nazirliyinin ətrafında xidmətə cəlb edilən Səbail RPİ Post-Patrul Xidməti Bölüyünün əməkdaşlarının gündəlik xidməti fəaliyyətini müşahidə etməklə, bir qədər də qətiləşdirmişik.**

Məlum olduğu kimi, DİN-ə gəlib müraciət edənlərin bir qismini şikayət etmək məqsədilə rəhbərliyə üz tutanlar təşkil edir. Haqlı, yaxud haqsız olmasından asılı olmayaraq, bəzən həmin an şikayətçinin emosional vəziyyəti, yumşaq desək, heç də sabit olmur. Bu durumda mühüm dövlət qurumunun mühafizəsini təmin etməli olan patrul xidmətinin əməkdaşı, eyni zamanda onları qarşılayıb aidiyyəti üzrə istiqamətləndirməli olur.

İki ildir bu ərazidə xidmətə çıxan **Səbail RPİ PPXB-nin polis nəfəri, polis serjantı Emin Murtuzayev** deyir ki, belə vəziyyət onların məsuliyyətini birə-beş artırır. O, təvazökarlıq edib "işimizin öhdəsindən gəlməyə çalışırıq" söyləsə də, bu yaxınlarda baş vermiş insident zamanı davranışı ilə əsl peşəkarlıq nümayiş etdirib. Nazirliyin qarşısında üzərinə yandırıcı maye tökərək, özünü yandıran şəxsin həyatını xilas edən həmkarımız o anları belə xatırlayır: "Bir nəfər yaxınlaşdı, vəsiqəsini çıxardı ki, qeydiyyata alım. Amma elə bu vaxt, o, anidən intihara cəhd etdi. Mən də onun qarşısını almaq üçün müdaxilə etdim, alov bütün bədənini bürümədən söndürə bildik".

Hadisə zamanı xəsarət alan həmkarımızın əlinin üstündəki dərin yanıq izləri alovla mübarizənin ağır nişanəsi kimi hələ də qalır.

Baş vermiş bu hadisə Daxili İşlər Nazirliyinin fəaliyyətilə əlaqəli deyildi, amma belə gözlənilməz hallar istər-istəməz polisi diqqət mərkəzinə çəkir. Hadisə zamanı peşəkarlıq sərgilədiyinə görə DİN rəhbərliyi tərəfindən mükafatlandırılan polis serjantı Emin Murtuzayev Polis Akademiyasının 4-cü kurs kursantıdır. Deyir, uşaq ikən qəhrəmanlıq hekayələrini dinlədiyi polislər kimi asayiş keşikçisi olmanın xəyalını qurub, indi isə qohumlarının uşaqları ona baxıb polis olmağı arzulayırlar.

Onun kimi **PPXB-nin polis nəfəri, polis kiçik serjantı Mirələm Mircəfərovun** da xidmət yeri Nazirliyin yanıdır. Daxili işlər orqanlarında cəmi bir ildir xidmət edən gənc həmkarımızın atletik görünüşü onun davamlı olaraq idmanla məşğul olduğunu göstərir. Xidmətdə yeni olsa da, ağır məsuliyyət tələb edən ərazidə posta təhkim olunması Mirələmin qısa müddətdə nümunəvi xidməti ilə etimad qazanmasından xəbər verir.

Yeri gəlmişkən, bayır xidmətinə cəlb edilən əməkdaşların hazırlıq səviyyəsinə xüsusi diqqət yetirildiyini deyən **Səbail RPİ-nin rəisi, polis polkovniki Hikmət Qasımov** da hər iki polis nəfərinin bu mənada seçildiyini bildirdi.

Mirələm daxili işlər orqanlarında xidmət etmək üçün onlayn müraciət edib, daha sonra rəsmi formada cavab gəlib və xidmətə qəbul olunub: "Orta məktəbi bitirəndən sonra DİN-in Polis Akademiyasına imtahan vermişdim, amma qəbul ola bilmədim. Bununla belə, arzumu həyata keçirmək üçün sıravi polis nəfəri kimi də olsa, bu uniformanı geyinməyə qərar vermişdim və beləliklə, hazırda böyük qürur hissi ilə xidmət edirəm".

Sonda elə bu iki əməkdaşa istinad edib deyə bilərik ki, polis postlarında xidmət edən asayiş keşikçiləri hər zaman hadisələrin bir addımlığında olduqlarına görə ictimai asayişin "dayaqları" adını haqq edirlər.

# "Səssiz ölümə" qucaq açmayaq

## DİN Mətbuat Xidmətinin əməkdaşları da maarifləndirmə tədbirlərinə qoşulub

Siyəzən Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə rayonun Mədəniyyət Mərkəzində rayon sakinləri ilə görüş keçirilib. Tədbirdə DİN yanında İctimai Şuranın üzvləri, rayon icra hakimiyyətinin nümayəndələri, prokurorluq işçiləri, polis veteranları, qazilər və orta məktəb şagirdləri iştirak ediblər.

Tədbir Dövlət Himninin səslənməsi və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsilə başlayıb.







**RPŞ-nin rəisi, polis polkovniki Xəqani Məmmədov** bu cür görüşlərin əhalinin qayğı və problemlərinin yerindəcə öyrənilməsi, eyni zamanda operativ həlli üçün önəmli olduğunu bildirib. Narkomaniya və cinayətkarlığa qarşı mübarizə mövzusuna toxunan rəis qeyd edib ki, belə halların baş verməməsi və vaxtında aradan qaldırılması üçün polis-vətəndaş münasibətlərinin möhkəmlənməsi mühüm əhəmiyyətə malikdir.

**Siyəzən Rayon İcra Hakimiyyətinin nümayəndəsi Günel Ağayeva** da polisin sakinlərlə, məktəblilərlə görüş keçirməsini müsbət ənənənin davamı kimi qiymətləndirib. O, sabitliyin qorunub-saxlanılmasında vətəndaşların da iştirakının önəmli olduğunu bildirib.

Daha sonra cinayətkarlıqla mübarizədə, eləcə də həm Birinci, həm də İkinci Qarabağ müharibəsində daxili işlər orqanları əməkdaşlarının fədakarlıqlarından söz açan **DİN Mətbuat Xidmətinin rəis müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov** tədbir iştirakçılarının diqqətini narkomaniya ilə mübarizəyə çəkib. Qeyd edib ki, cari ilin 4 ayı ərzində daxili işlər orqanlarının əməkdaşları tərəfindən 1 ton 315 kiloqram narkotik vasitənin dövriyyədən çıxarılması sağlam cəmiyyət və sağlam gələcək uğrunda polisin qətiyyət göstərdiyini təsdiqləyir. "Bu səssiz ölümün ailələrimizin, cəmiyyətimizin içinə sızmaması üçün əl-ələ verib gənclərimizin sağlamlığını, həyatını qorumalıyıq. Bu işdə hamı polisin yanında olmalıdır".

Tədbirdə dini radikalizm mövzusu da diqqət mərkəzində olub. Vurğulanıb ki, Azərbaycan Polisi bütün dinlərə, o cümlədən mənsub olduqları dinə, milli dəyərlərə böyük sayğı ilə yanaşır, hər kəsin dini etiqadına hörmət edir. Lakin dini hissləri istismar edib, cəmiyyətdəki nizamı pozmağa çalışanlara heç bir halda fürsət vermək olmaz.

Daha sonra rayon sakinləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*



# HƏR ANIN HÖKMÜ VAR...

## Onlar vətəndaşla polis arasında fasiləsiz rabitəni təmin edirlər

Kənardan asan görünən bu "kabinet işi" əslində, daha çox məsuliyyət, diqqət tələb edən ağır sahələrdən biridir. Çünki onlar günün 24 saatı gələn zənglərə operativ reaksiya verir, müraciətlərin mahiyyətini dəqiqləşdirir, ünvan soruşur, bir sözlə xəttin o başında çarəsiz vəziyyətdə qalanların imdadına çatırlar. Söhbət DİN NHİX-nə bilavasitə tabe olan "102 Xidməti-Zəng Mərkəzi"nin əməkdaşlarından gedir.

Xidmət şəhər və rayonlarda əməliyyat şəraitinə nəzarəti həyata keçirir, daxil olan məlumatlar üzrə təcili tədbirlər görür, ərazi polis orqanları ilə rabitəni təmin edir. Cinayət və hadisələr barədə məlumatların fasiləsiz qəbulu, qeydiyyatı, işlənməsi, eləcə də sənədləşdirilməsi də görülən işlərə daxildir.

**Xidmətin rəisi, polis polkovnik-leytenantı Aygün Hümbətova** deyir ki, bu gün artıq ən ucqarlarda belə vətəndaşların polisə əlçatanlılığının asanlaşması, koordinasiyalı işin təşkili vətəndaş məmnunluğu ilə müşahidə olunur. Aprel ayında Media Təhlil Mərkəzinin dövlət və özəl qurumlarda Çağrı mərkəzlərinin fəaliyyət indeksini müəyyənləşdirmək məqsədilə keçirdiyi sorğuda məhz "102" xidmətinin birinci yerə layiq görülməsi vətəndaşların daxili işlər orqanlarına olan inam və etibarının təzahürüdür. Cari ilin beş ayı ərzindəki statistika da vətəndaşların polisə olan mövqeyini ortaya qoyur. Bu arada, qəbul olunan 923.105 zəngin 259.627-si qeydiyyata alınmaqla aidiyyəti üzrə polis orqanlarına ötürülüb ki, bu da 1016 cinayətin "isti izlər"lə açılmasına imkan verib. Göstərilən operativliyə, obyektivliyə, habelə həssas münasibətə görə 646 təşəkkür zəngi də qeydə alınıb.



"Üç növbəli olmaqla gündəlik 30 əməkdaş xidmətə cəlb olunur. Ölkədə keçirilən xüsusi əhəmiyyətli idman, o cümlədən mədəni-kütləvi tədbirlər zamanı gücləndirilmiş iş rejimində çalışırıq. Həmçinin, sutkalıq naryada rus, ingilis, ərəb dillərini bilən əməkdaşlar cəlb olunur",-deyən **"102 Xidməti-Zəng Mərkəzi"nin rəis müavini, polis mayoru Şamxal Muradov** müraciət edənlərlə Mərkəz arasındakı daimi, fasiləsiz rabitənin təmini məqsədilə yeni alternativ rabitə sisteminin yaradıldığını bildirdi. Yeni sistem vasitəsilə istənilən fövqəladə hal zamanı, hətta rabitə, işıq qapandığı vaxt belə vətəndaşlar heç bir çətinlik çəkmədən "102"-lə əlaqə yarada biləcək.

Söhbət əsnasında, xidmət səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılan hərtərəfli şəraitdən söz açan polis mayoru Ş.Muradov DİN rəhbərliyi tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıya da toxundu. Bildirdi ki, bu il xidmətə yeni qəbul olunmuş əməkdaşlardan **polis kiçik serjantları, Zeynəb Rzayeva, Günel Məmmədova, Nərminə Ağamalıyeva, İlahə Həmidova Vətən müharibəsi şəhidlərinin həyat yoldaşları, Aybəniz Məmmədova, Nuranə Məmmədova və mülki Çiçək Nuriyeva şəhid bacılarıdır. Paqondaşları polis serjantları, Elzadə Əliyeva və Aytən Abbasova da İkinci Qarabağ müharibəsi qazilərinin həyat yoldaşlarıdır.**

Ötən illər ərzində Mərkəz əməkdaşlarının yaddaşlarında dərin izlər buraxan zənglərdən:

"Alo! Salam. Sizinlə danışan Nəzrin Məmmədlidir. Sizi peşə bayramınız münasibətilə təbrik etmək istəyirəm. Etiraf etmək lazımdır ki, məhz sizin sayənizdə küçələr sakitliyə, insanlar rahatlığa qovuşub. Əgər biz rahat yatıb, gecələri rahat gəzə biliriksə, hər yerdə əmin-amanlıq görürüksə, deməli bu sizin zəhmətinizdir. Ən təəccüblüsü də odur ki, yorğunluğunuza, vətəndaş etirazına, bir sözlə, bütün neqativlərə baxmayaraq səsinizdə daimi pozitiv bir enerji var. Bir gənc olaraq sizi səmimi qəlbdən təbrik edirəm. Əminik ki, bizi daima qoruyacaq, xidmətimizdə dayanacaqsınız."

Yeri gəlmişkən, Vətən müharibəsi iştirakçısı, Xocalı rayon sakini Cəmşidin "əgər şəhid olsam, qoy arxivinizdə qalsın",-deyərək ifa etdiyi "Qarabağ şikəstəsi"ni də həmkarlarımız əziz xatirə kimi qoruyub-saxlayırlar.

*Teymur Əlizadə,*
*polis mayoru*

# NARKOMANİYA SAĞLAM HƏYATIN DÜŞMƏNİDİR!



Sabunçu Rayon Polis İdarəsinin təşkilatçılığı ilə 142 nömrəli tam orta məktəbdə "Narkomaniyaya yox deyirik!" mövzusunda maarifləndirici görüş keçirilib.

Tədbirdə çıxış edən **RPİ-nin rəisi, polis polkovniki Cavid Muradov** dünyanı narahat edən bəşəri problemlərin sırasında birinci olan, yaşından asılı olmayaraq hər kəsin ölümünə yol açan narkomaniyadan danışıb. Narkotik vasitələrin satışı ilə mübarizədə polisin uğurlu əməliyyat-axtarış işləri həyata keçirdiyini deyən idarə rəisi maarifləndirmə tədbirlərinin əhəmiyyətini önə çəkərək görülən işlərdə cəmiyyətin də ciddi dəstək olmasının vacibliyini vurğulayıb.



Nəsimi Rayon Polis İdarəsinin təşkilatçılığı ilə 44 saylı tam orta məktəbdə və 16 nömrəli Texniki Humanitar Liseyində "Gənclər narkotikə yox deyir!" mövzusunda keçirilən görüşlərdə məktəbin, eləcə də liseyin pedaqoji heyətləri, şagirdlər, tələbələr iştirak ediblər.



İnsanı cəmiyyətdən təcrid edən, mənəviyyatına, şüuruna, bir sözlə ömrünə balta çalan narkomaniyanın özünə qəsdin bir forması olduğunu iştirakçıların diqqətinə çatdıran **RPİ-nin rəisi, polis polkovnik-leytenantı Mirnemət Mirbabayev** onlara zərərli vərdişlərə meyl etməmələrini, daha faydalı işlərlə məşğul olmağı, diqqətlərini təhsilə, idmana yönəltməyi məsləhət görüb.

Göyçay rayon 4 saylı tam orta məktəbdə baş tutan anoloji görüşdə **RPŞ-nin rəisi, polis polkovniki Müqalib Abdıyev** narkotik asılılığının cinayət törətməyə əsas səbəb olduğunu şagirdlərə izah edib. O, baş verən cinayətlərin əksəriyyətinin narkotik bəlasına düçar olan şəxslər tərəfindən törədildiyini bildirib.

Daha bir maarifləndirmə tədbiri Qax rayonunda keçirilib. Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə 1, 4, 5 saylı, eləcə də Almalı, Marsan, Qorağan və Zəyəm kənd tam orta məktəblərində baş tutan silsilə görüşlərdə çıxış edən polis əməkdaşları və DİN Veteranlar Şurasının üzvləri narkomaniya ilə mübarizədə polis-məktəb-valideyn həmrəyliyinin əhəmiyyətindən söz açıblar. Qeyd olunub ki, məhz birgə səylər nəticəsində gənc liyimizi, gələyəcəyimizi "ağ ölüm"dən uzaq tutmaq olar.

Tədbirlərdə narkotiklərin törətdiyi fəsadlarla bağlı videoçarxlar nümayiş etdirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# İDMANÇI POLİSLƏR FƏRQLƏNDİ







**Ötən həftə Daşkənd şəhərində universal döyüş üzrə keçirilən dünya çempionatında 30 ölkədən 600-dən çox idmançı gücünü sınayıb.**

Çempionatda ölkəmizi təmsil edən daxili işlər orqanları əməkdaşları da medalsız qalmayıblar.

Belə ki, 85 kiloqram çəki dərəcəsində dünya çempionatlarının mükafatçısı, Avropa çempionu, **Sabunçu RPİ PPXB-nin manqa komandiri, polis baş serjantı Orxan Şükürov** bürünc medal qazanıb. O, Tacikistan və Moldova idmançıları üzərində inamlı qələbə qazansa da, yarımfinalda qazaxıstanlıya məğlub olub.

Daha sonra 95 kiloqram çəki dərəcəsində rinqə çıxan idman ustası, universal döyüş üzrə dünya və Avropa mükafatçısı, **Əlahiddə Çevik Polis Alayının manqa komandiri, polis baş serjantı Asif Səlimli** ilk görüşlərində Moldova və qazaxıstanlı idmançıları yarışdan uzaqlaşdırsa da, yarımfinalda Özbəkistan idmançısına uduzaraq çempionatı bürünc medalla başa vurub.

❖❖❖

**İyunun 2-dən 5-dək Yunanıstanın Heraklion şəhərində usta cüdoçular arasında Avropa çempionatı baş tutub.**

Çempionatda 30-a yaxın ölkədən 240 idmançı şəxsi birincilik uğrunda mübarizəyə qatılıb.

Həmin yarışda 81 kiloqram çəki dərəcəsində iki dəfə ustalar arasında Avropa çempionu, türk dövlətlərinin güc strukturlarının qalibi, MDB dövlətlərinin güc strukturlarının gümüş mükafatçısı, dəfələrlə beynəlxalq turnirlərin mükafatçısı, idman ustası **Əlahiddə Çevik Polis Alayının manqa komandiri, polis baş serjantı Azər Fətullayev** qızıl medal qazanıb.

A.Fətullayev hələ yarış başlamazdan əvvəl favoritlər arasında lider olub. Fransa, Finlandiya və Gürcü cüdoçularına gücünü göstərən həmkarımız Yunanıstan cüdoçusuna da şans verməyib.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# POLİS ÖVLADI AZƏRBAYCAN ÇEMPİONU OLDU

Bu gün Azərbaycan dünya miqyasında həm də güclü idman ənənələri ilə tanınır. Ölkəmizdə idmanın ümummilli hərəkata çevrilməsi, inkişafı gələcək nəslin sağlam, vətənpərvər ruhda böyüməsinə xidmət edir. Yeri gəlmişkən, sıralarımızda beynəlxalq arenalarda uğurlara imza atmış yüzlərlə idmançı polislər, eləcə də onların övladları var.



Budəfəki qəhrəmanımız **Abşeron RPİ-nin rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi, polis polkovnik-leytenantı Yaşar Məmmədovun oğlu Tuncay Məmmədovdur.** O, artıq idman karyerasındakı gələcək uğurlarının ilk təməlini qoyub. Belə ki, Tuncay mayın 29-da "Sərhədçi" İdman Olimpiya Mərkəzində keçirilən Kunq-Fu üzrə Azərbaycan çempionatının qalibi olub. Həmkarımızın oğlu çıxış etdiyi 42 kiloqram çəki dərəcəsində bütün rəqiblərini yenərək qızıl medala sahiblənib.

Gənclər və idman naziri Fərid Qayıbovun imzaladığı diplom fəxri kürsünün ən yüksək pilləsində polis övladına təqdim edilib.

*T.Əlizadə*

# BİR MƏKTUBUN SORAĞI İLƏ...



"Texnofest festivalında qızım diqqətsizlik ucbatından içərisində pul və mühüm sənədlər olan cüzdanını itirmişdi. Cüzdanı tapan Xəzər Rayon Polis İdarəsi Post-Patrul Xidməti Bölüyünün əməkdaşları bu barədə oradakı tələbələri məlumatlandırıb, əlaqə nömrəsi veriblər. Xəbər tutan kimi polislərlə əlaqə saxladıq.

Bu hadisə Azərbaycan Polisinə olan inamımızı ikiqat artırdı. Polislərin ayıq-sayıq, operativ və peşəkar olduqlarının bir daha şahidi oldum. Və sözün həqiqi mənasında, qürurlandım".

Bu fikirlər siyasi elmlər üzrə fəlsəfə doktoru, əməkdar jurnalist Bayram Hüseynzadənin DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubundandır.

Həmkarlarımızı axtarıb, arayıb həmsöhbət olduq.

**Xəzər RPİ PPXB-nin komandiri, polis kapitanı İrşad Alxasov:** "Gündüz xidmətdə olan **manqa komandiri, polis baş serjantı Vaqif Kərimov və polis nəfəri, polis serjantı Rafael Hüseynov** işıq dirəyinin yanında cüzdan aşkar ediblər. Əməkdaşlar pul kisəsinin Bakı Dövlət Universitetinin tələbəsinə aid olduğunu müəyyənləşdiriblər. Bu barədə orada olan digər tələbələr məlumatlandırılıb. Bir neçə saatdan sonra bir vətəndaş zəng vuraraq pul kisəsinin onun qızına məxsus olduğunu bildirib. Elə həmin gün Bayram Hüseynzadə idarəyə dəvət olunub, sənədlər və 125 manat ona qaytarılıb".

*Teymur Əlizadə*

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Xətai RPİ-nin 34-cü Polis Şöbəsinə** iyunun 2-də M.Rüstəmov küçəsində Bakı şəhər sakini S.Qəhrəmanovun 8330 manatının soyğunçuluq yolu ilə əlindən alınması barədə müraciət daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində soyğunçuluğu törətməkdə şübhəli bilinən paytaxt sakini Ə.Ağayev müəyyən edilərək saxlanılmışdır. Rayon Polis İdarəsində araşdırma aparılır.

◆◆◆

**Yasamal RPİ 27-ci Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan Salyan rayon sakini H.Mikayılovdan marixuana, Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş E.Ağayevdən isə 1 kiloqram 510 qram heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Suraxanı RPİ 30-cu Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Hövsan qəsəbə sakini E.Məmmədovun həyətindən kultivasiya yolu ilə yetişdirilmiş 299 ədəd çətənə kolu aşkar edilərək götürülmüşdür.

◆◆◆

**İsmayıllı RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Ruşan kəndi ərazisində Şirvan şəhər sakinləri A.Cəbiyevin və A.Ərəbovun kultivasiya yolu ilə yetişdirdikləri 984 ədəd çətənə kolu aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Şəmkir RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində rayon sakini, əvvəllər məhkum olunmuş N.Səfərovdan nömrəsi silinmiş, lüləsi və qundağı kəsilmiş tüfəng və 2 ədəd patron aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Gəncə ŞBPİ 1-ci Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan şəhər sakini T.Turabovdan tiryək və marixuana aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə narkotik vasitəni ona satmaqda şübhəli bilinən, əvvəllər məhkum olunmuş Y.Quliyev də müəyyən edilərək saxlanılmış, ondan 13 qramdan artıq marixuana, yaşadığı evə baxış zamanı isə 1 kiloqram 390 qram tiryək götürülmüşdür.

## Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Tibb İdarəsinin müalicə-profilaktika müəssisələrində vakant olan tibb bacısı (sıravi və kiçik rəis heyəti) vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir

Müsabiqədə Azərbaycan Respublikasının dövlət tibb orta-ixtisas təhsil müəssisələrində tibb bacısı və ya feldşer ixtisası almış, boyu 160 santimetrdən aşağı, yaşı 25-dən yuxarı olmayan, ixtisası üzrə azı 3 il praktiki təcrübəyə malik, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayış yeri olan qadın cinsli vətəndaşlar iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2022-ci ilin may ayının 16-dan iyun ayının 16-dək **www.mia.gov.az** ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak etmək üçün dəvət edilən namizədlər şəxsiyyət vəsiqəsi, təhsil haqqında diplom və əmək kitabçasını təqdim etməlidirlər.

Müsabiqədə qaliblərinə müvafiq xüsusi rütbə veriləcək və qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 590-20-59**
**(012) 590-20-94**




Bəzi insanlar müxtəlif gərginliklər səbəbindən stress və narahatlıq içərisində yaşayırlar. Bu da onlarda post-travmatik stress pozğunluğu və panik atak (PA) kimi xəstəliklərə səbəb olur.

Panik atak: növləri və simptomları.

Panik atak narahatedici simptomlarla müşayiət olunan güclü qorxu və narahatlığın əsassız və qəfil hücumudur. Adətən bu uzun sürmür.

Panik atak situativ və ya spontan ola bilər. Situativ PA bir insanda qorxuya səbəb olan və ya ağır xatirələrlə əlaqəli olan xüsusi bir vəziyyətdə baş verir. Məsələn,

## Panik atak

müharibədən sağ çıxan adam atəşfəşanlıq səsi ilə panik atak keçirə bilər. Spontan PA heç bir səbəb olmadan və hətta yuxuda baş verir.

PA simptomları aşağıdakılar ola bilər:

əsaslı səbəblər olmadan şiddətli panika və narahatlıq;

qeyri-iradi əzələ gərginliyi;

kəskin hava çatışmazlığı hissi;

sürətlənmiş ürək döyüntüsü;

keyləşmə və üşütmə, şiddətli titrətmə;

tərləmə;

başgicəllənmə və bədənin əsməsi hissi;

qarında spazm;

depressiya, acizlik hissi.

Panik atakda nə etməli?

Panik atak keçirsəniz, mütləq nevroloq, psixiatr və ya psixoterapevtə müraciət etməlisiniz ki, həyati təhlükə yaranmasın.

PA dərmanlarla uğurla müalicə olunur.

Panik atak gözlənilmədən baş verərsə, rahat bir mövqe tutmalı və dərin nəfəs almağa diqqət etməlisiniz. 10-15 dəfə dərindən nəfəs alın və verin. Yataqda uzanın, hər şeyi bir kənara qoyun, sizə xoş gələn və ya sizi sakitləşdirən bir şeyi edin.

"5-4-3-2-1" texnikasından istifadə edərək panik ataki dayandırmağa cəhd edə bilərsiniz.

Əvvəlcə qarşınıza baxın və gördüyünüz ilk 5, hiss edə biləcəyiniz 4 şeyin adını çəkin, eşitdiyiniz 3 səsi çıxarın, şampun və ya qəhvə kimi qoxuladığınız 2 qoxunu və son yadınızda qalan bir dadın adını deyin.

Bu məşq sizə rahatlamağa və daha tez yaxşılaşmağa kömək edəcək.

*Natiq Abdullayev*




## SINAQDAN QALİB ÇIXDILAR...



"28 may-Müstəqillik Günü"nə həsr olunmuş xidməti çoxnövçülük yarışının qalibləri müəyyənləşib. Turnikdə dartınma, 1000 metr məsafəyə qaçışla yanaşı, ilk dəfə üzgüçülüyün də (25 metr) daxil olduğu bu yarışın devizi "güclülər qalib gəlsin" idi.

Bölgə üzrə xidməti çoxnövçülükdə 3 hərəkətin cəminə görə ən yüksək bal toplayan əməkdaşlardan Göygöl üzrə Şəmkir RPŞ-nin polis nəfəri Sərxan Eyyubov 1-ci, Göygöl RPŞ-nin polis kiçik serjantı İlyas Mehdiyev 2-ci, Goranboy RPŞ-nin polis serjantı Röyal Baxşıyev 3-cü yeri, Sumqayıt üzrə Qusar RPŞ-nin polis leytenantı Naim Hüseynov 1-ci, Siyəzən RPŞ-nin polis serjantı Bəxtiyar Nadirov 2-ci, Quba RPŞ-nin polis leytenantı Əlixan Heydərli 3-cü yeri, Şəki üzrə Xocalı RPŞ-nin polis serjantı Yusif Məmmədov 1-ci, Şəki RPŞ-nin polis serjantı Elvin Əfrizanov 2-ci, Qəbələ RPŞ-nin polis leytenantı İlkin Göyüşov 3-cü yeri, Saatlı üzrə Salyan RPŞ-nin polis serjantı Mirhadı Nəzirli 1-ci, Saatlı RPŞ-nin polis kiçik serjantı Orxan Şirinov 2-ci, Saatlı RPŞ-nin polis kiçik serjantı Azər Məmmədov isə 3-cü yeri tutaraq Bakıda keçirilən DİN-in çempionatına vəsiqə qazanıblar.

**DİN İdman Cəmiyyətinin sədr müavini, polis polkovniki Elçin Rüstəmov** iştirakçılara uğurlar arzulayıb. **DİN İdman Cəmiyyətinin idmanın təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Munir Orucov** idmançılara qaydaları izah etdikdən sonra yarışa start verilib.

Xatırladaq ki, atıcılıq üzrə qarşılaşmalar DİN-in Polis Akademiyasında, qaçış və üzgüçülük isə Şağan Olimpiya İdman Kompleksində baş tutub.

3 hərəkətin cəminə görə şəxsi yarışda kubok sahibi Daxili Qoşunlardan MAXE əsgər Əhməd Bağırov 370 balla 1-ci yerə layiq görülüb, Polis Akademiyasının 2-ci kurs kursantı, polis sıravisi Polad Hüseynli 362 balla 2-ci yerdə qərarlaşıb, 3-cü yeri isə Polis Akademiyasının 3-cü kurs kursantı, polis sıravisi Məhəmmədəli Həsənzadə 359 balla tutub.

Sonda yarış iştirakçılarına kubok, medal, diplom təqdim edilməklə, xatirə şəkli çəkdirilib.

*Ruslan Vəliyev, polis baş leytenantı*

## STATİSTİKA

### Kriminal icmal

- İyunun 1-dən 8-dək olan müddət ərzində respublikanın daxili işlər orqanları tərəfindən 419 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 106 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 407, o cümlədən borclu şəxs qismində axtarışda olan 276 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 11 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 12 nəfər ölmüş, 4 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 218, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 15 fakt müəyyən edilmişdir.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9236
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:00
Qiyməti 40 qəpik